SİYASƏT

46 təşkilat Azərbaycanın ATƏT sədrliyinə qarşı çıxır

Noyabr 24, 2026



ATƏT

Bir sıra ölkələrdən olan vətəndaş cəmiyyəti təşkilatları Azərbaycanın ATƏT-ə mümkün sədrliyinə qəti etirazını bildirib, iştirakçı dövlətləri bu təşəbbüsün qarşısını almağa çağırıb.

"Azərbaycan hökuməti təhlükəsizlik, ətraf mühit və insan hüquqları sahələrində etibarlı tərəfdaş deyil və təşkilata sədrliyə layiq görülməməlidir", – Belarus, Rusiya, Ukrayna, Fransa, Serbiya, ABŞ və digər ölkələrdən 46 qurumun imzaladığı müraciətdə deyilir.

Siyahıda İşgəncələrə Qarşı Dünya Təşkilatı (OMCT), ABŞ-dən "Freedom Now", Azərbaycandan İnsan Hüquqları Mərkəzi, Belarus Helsinki Komitəsi və "Vyasna" İnsan Haqları Mərkəzi də yer alıb.

Müraciətdə bildirilir ki, bu il noyabrın 19-da iştirakçı dövlətlər Azərbaycanın 2027-ci ildə ATƏT-ə sədrliyi ehtimalını müzakirə ediblər.

"Təşkilatın idarəçiliyinin avtoritar hökumətə həvalə olunması əsas sütunlarından biri insan haqları olan qurumun legitimliyini və etibarlılığını ciddi şübhə altına alardı", – bəyanatda deyilir.

Müraciətdə Azərbaycanda 2013-cü ildən bəri müstəqil vətəndaş cəmiyyətinə, jurnalistlərə və insan haqları müdafiəçilərinə qarşı kütləvi təzyiqlər göstərildiyi, bunun 2023-cü ildən etibarən daha da intensivləşdiyi vurğulanır. Həmçinin ölkə həbsxanalarında azı 300 siyasi məhbusun olduğu diqqətə çatdırılır.

Müraciəti imzalayanlar iştirakçı dövlətləri Azərbaycan hakimiyyətinin ATƏT sədrliyinə istənilən namizədliyini rədd etməyə çağırır.

Rəsmi Bakı bu müraciətə hələlik münasibət bildirməyib. Ancaq hakimiyyət indiyədək ölkədə bütün fundamental azadlıqların qorunduğunu vurğulayıb, "siyasi məhbus" terminini qəbul etməyərək fərdlərin konkret cinayətlərə görə cəza çəkdiyini bəyan edib.

Buna da bax:

'Human Rights Watch' Bəşir Süleymanlıya azadlıq tələb edir

Jurnalistlərə qarşı zorakılıqlar necə araşdırılır: 'Ya məni tərifləyin, ya da düşmənsiniz'

Həbsdəki jurnalistlərin və fəalların çağırışını eşidən varmı: 'Birləşməyə adam qalmayıb'

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur